**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

23 avqust 2024-cü il №29 (9087) www.muallim.edu.az muallim@media.edu.az

**Xaricdə təhsil aldı, çempion oldu, kənd məktəbini seçdi**

# “MƏN ÖZ MÜƏLLİMLƏRİMİ HƏMİŞƏ XATIRLAYIRAM”

*Heydər ƏLİYEV, Ümummilli Lider*

**“...Mən hər dəfə Naxçıvana gedəndə müəllimlərimi mütləq tapıram, görüşürəm, söhbət edirəm. Təəssüflər olsun ki, mənə dərs deyən insanların, demək olar ki, hamısı dünyasını dəyişibdir. Ancaq bir müəllimim yaşayır... Adı da Lətif Hüseynzadədir...”.**

Bax səh. 2



## Beynəlxalq Riyaziyyat Müsabiqəsində ölkəmizi uğurla təmsil etdilər – ADA-nın medalçıları




**“Keçilən xüsusi dərslər və hazırlıq prosesi içimizdə tam əminliklə MEDALLA qayıdacağıq hissini formalaşdırmışdı”**

Bax səh. 7

## “Öz tələbələrimizi həm də Türkiyə-Azərbaycan Universitetinin gələcək müəllimləri kimi yetişdirəcəyik”



“Hesab edirəm ki, 1-2 ilə tədrisin digər növlərinin də təşkili həyata keçiriləcək. Çünki biz burada öz tələbələrimizi həm də Türkiyə – Azərbaycan Universitetinin gələcək müəllimləri kimi yetişdirəcəyik, bizim bir missiyamız da bu olacaq”

Bax səh. 3

## Təhsilin İnkişafı Forumu 2024 keçiriləcək

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş Təhsilin İnkişafı Forumu (TİF2024) “Tərəfdaşlıqdan Tərəqqiyə” konsept mesajı ilə Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondu, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi tərəfindən 8 oktyabr 2024-cü il tarixdə Gülüstan Sarayında təşkil olunacaq.**

“Azərbaycan müəllimi” xəbər verir ki, forumun əsas məqsədi dövlət-universitet-sənaye tərəfdaşlığının dayanıqlı və davamlı inkişafına töhfə verməkdən ibarətdir. Eyni zamanda, dövlət-özəl əməkdaşlığı çərçivəsində layihələrin təşviqi, akademik təsisatların sənaye qurumları ilə fəaliyyətlərinin inteqrasiyası, insan kapitalının inkişafı tədbirin əsas mövzuları sırasındadır.

Tədbir 3 panel üzrə peşəkar moderator və spikerlərin iştirakı ilə baş tutacaqdır. Dövlət-universitet və sənaye arasında əməkdaşlıq modellərinə nümunə olaraq müştərək tədqiqat mərkəzlərinin yaradılması və fəaliyyəti, tədqiqatlar üzrə tərəfdaşlıq, texnologiyanın transferi, inkubator və innovasiya mərkəzləri, sənaye təcrübə proqramları müzakirə mövzuları arasındadır.

Təhsilin İnkişafı Forumu ilk dəfə olaraq “Təhsildən tərəqqiyə” konsept mesajı ilə 1 noyabr 2023-cü ildə 350-dən artıq nümayəndənin iştirakı ilə keçirilmişdir. Forumdan sonra bir sıra ali təhsil müəssisələri Bakı və regionlarda sənaye qurumları ilə faydalı əməkdaşlıqlara start vermiş və səmərəli layihələr həyata keçirmişlər. Forum hər il ölkənin təhsil sisteminin cari vəziyyəti, iqtisadiyyata inteqrasiyası, dövlət-özəl tərəfdaşlığının inkişaf perspektivlərinə dair ən vacib məsələlərin müzakirəsi üçün faydalı platforma təmin edir.

Təhsilin İnkişafı Fondu təhsilin bütün pillələrində təhsilalanlara və təhsilverənlərə yönəlik müxtəlif layihələr həyata keçirir, infrastruktur layihələri icra və təhsil sahəsində dövlət-özəl tərəfdaşlığını təşviq edir.

## Məktəblilərimiz Yeniyetmələrin Avropa İnformatika Olimpiadasında daha 3 medal qazanıblar




14-22 avqust tarixlərində Moldovanın paytaxtı Kişinyov şəhərində Yeniyetmələrin Avropa İnformatika Olimpiadası (EJOI 2024) keçirilib. Müsabiqədə ölkəmizi təmsil edən məktəblilərimiz uğurlu nəticə göstəriblər. Belə ki, Bakı şəhəri 157 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Həsən Vəliyev gümüş, Bakı Türk Anadolu liseyinin 9-cu sinif şagirdi Əhməd Qənbərli və Sumqayıt şəhəri 23 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Muhammedali Əhmədov bürünc medal qazanıblar.

Məktəblilərimiz sözügedən olimpiadada 2017-ci ildən iştirak edirlər və bu vaxta kimi 4 gümüş, 8 bürünc medal qazanıblar.

Qeyd edək ki, informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi “Azercell Telekom” MMC və Təhsil İnstitutunun əməkdaşlığı çərçivəsində həyata keçirilir. İndiyədək ölkə üzrə fərqli yaş qruplarından olan şagirdlərimiz müxtəlif miqyaslı proqramlaşdırma müsabiqələrində ümumilikdə 77 medal qazanıblar.

# Peşə təhsili aldı, sahibkar oldu

**“Mən peşə təhsili alaraq Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində, sadəcə yaxşı şirniyyatçı yox, sahibkar olmağı da öyrəndim. 2022-ci ildə məzun olduğum peşə təhsili müəssisəsindən şirniyyatçı sahibkar kimi çıxdım. Məndən sonra elektrik montyoru olan yoldaşım da Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin məzunu oldu”.**

Bax səh. 4



## 90 milyondan çox öyrənənə xidmət göstərən “National Geographic Learning”in baş direktoru “Yeni çağırışlar”da




**Avqustun 23-də “Yeni çağırışlar” müzakirə proqramının növbəti buraxılışı yayımlanacaq.**

Proqramın budəfəki buraxılışında “National Geographic Learning” Qlobal Tərəfdaşlıq Qrupunun baş direktoru Erik Qundersen qonaq olacaq. Erik Qundersen ilə yaşıl təhsil barədə danışılacaq.

Proqram Elm və Təhsil Nazirliyinin rəsmi “Facebook” səhifəsi üzərindən canlı yayımlanacaq.

Erik Qundersen Portuqaliyanın Lissabon şəhərindəki Amerika Dil İnstitutu və Berkli Kaliforniya Universitetində müəllim olaraq çalışıb. O, həmçinin bir sıra ölkələrin təhsil nazirlikləri üçün uğurlu layihələr həyata keçirib.

Erik Qundersenin rəhbərlik etdiyi “National Geographic Learning” Qlobal Tərəfdaşlıq Qrupu 133 ölkədə 90 milyondan çox öyrənənə xidmət göstərən aparıcı nəşriyyatlardandır. Məqsədi orijinal tədris materialları vasitəsilə şagird və tələbələri bilik və bacarıqlarla təmin etmək, onları gələcəyin liderləri olaraq hazırlamaqdır.

## 1934 "Azərbaycan müəllimi" 2024

# "MƏN ÖZ MÜƏLLİMLƏRİMİ HƏMİŞƏ XATIRLAYIRAM"

*Heydər ƏLİYEV, Ümummilli Lider*

**"...Mən hər dəfə Naxçıvana gedəndə müəllimlərimi mütləq tapıram, görüşürəm, söhbət edirəm. Təəssüflər olsun ki, mənə dərs deyən insanların, demək olar ki, hamısı dünyasını dəyişibdir. Ancaq bir müəllimim yaşayır... Adı da Lətif Hüseynzadədir...".**

**"...Mən öz müəllimlərimi həmişə xatırlayıram. Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm. Yadda qalanları da, qalmayanları da var... Amma sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir. Onların adlarını indiyə qədər xatirimdə saxlayıram. Dil-ədəbiyyat müəllimim - Lətif Hüseynzadə... çox gözəl ədəbiyyat dərsi deyirdi...".**



*Lətif Hüseynzadə*

# "Heydər Əliyev kimi bir şəxsin müəllimi olduğum üçün özümü xoşbəxt sanıram"

*- ...Lətif müəllim, xoşbəxt adamsınız ki, Heydər Əliyev kimi böyük bir şəxsiyyətin müəllimi olmusunuz. Heydər Əliyevlə ilk tanışlığınız nə vaxt olub? Ona hansı illərdə dərs demişsiniz?*

- Heydər Əliyevlə ilk tanışlığım onun atası Əlirza kişi ilə işlədiyim pedaqoji texnikuma gəldiyi gündən başladı. O vaxta qədər Heydər Əliyevi görməmişdim.

Yaxşı yadımdadır, 1937-38-ci tədris ilinin əvvəli idi. Dərslər artıq başlanmışdı. Bir gün Əlirza kişi oğlu Heydərlə bizim texnikuma gəldi. Onda mən texnikumda dil-ədəbiyyat müəllimi və dərs hissə müdiri işləyirdim.

Heydər Əliyev bizim pedaqoji texnikuma gələndə 15-16 yaşı olardı. O, texnikumdan əvvəl Naxçıvandakı beynəlmiləl məktəbdə oxumuşdu. O zamanlar bu məktəbə hər kəs gedə bilməzdi. Orada yalnız qabiliyyətli, istedadlı, mütərəqqi düşüncəli uşaqlar təhsil alırdılar. Bizim texnikumumuza qəbul müəllimlərin müsahibəsi, sual-cavabları ilə həyata keçirilirdi. Atası Əlirza kişi bildirdi ki, oğlum Heydər müəllim olmaq istəyir. Bu, elə mənim də ürəyimdəndir. Qamətli, boy-buxunlu, ilk baxışdan diqqəti cəlb edən gənclə söhbət etdim. Elə ilk dəqiqələrdən onun bilikli, qabiliyyətli olduğunu duydum, ədəbiyyatdan, dildən, tarixdən verdiyim suallara çox gözəl, əhatəli və təmkinlə cavablar verirdi. Xarici görkəmi də müəllimliyə yaraşan idi. Əsl müəllimliyə layiq keyfiyyətləri var idi.

**Yaxşı yadımdadır, 1937-38-ci tədris ilinin əvvəli idi. Dərslər artıq başlanmışdı. Bir gün Əlirza kişi oğlu Heydərlə bizim texnikuma gəldi. Onda mən texnikumda dil-ədəbiyyat müəllimi və dərs hissə müdiri işləyirdim.**

**1993-cü ilin baharı idi. Heydər Əliyevin 70 yaşı tamam olurdu. Yanına gedib onu təbrik etdim... O vaxt müavinini çağırıb tapşırıq verdi ki, Lətif müəllimin 90 illiyini Naxçıvanda təntənəli qeyd etmək lazımdır. Özüm də məruzəçi olacağam.**

**Bir gün Heydər Əliyevin görüşünə getdim. O, məni görüncə çox sevindi. Mənim sağ-salamat olmağımdan məmnun qaldı. Oturub xeyli söhbət etdik. Keçmiş günləri xatırladıq...**

Ürəyimdə fikirləşirdim ki, ondan yaxşı müəllim olar. O zaman hər yerdə müəllimlərə ciddi ehtiyac duyulurdu. Onunla qısa müsahibədən sonra direktorun yanına getdik. Direktor Kazım Talıblı idi. Ona bildirdim ki, bu gənci texnikumumuza qəbul etmək lazımdır. Mən onunla müsahibə aparmışam və razı qalmışam. Direktor dedi: "Yaxşı, onda riyaziyyatdan da sual-cavab edib, sonra baxarıq". O, texnikumun riyaziyyat müəllimi Tofiq Bəktaşini çağırtdırdı. Tofiq müəllim Heydər Əliyevə bir neçə məsələ və misal verdi. Heydər Əliyev çox çəkmədən verilən tapşırıqları səhvsiz yerinə yetirdi. Bəktaşi də məmnunluqla gülümsəyərək öz razılığını bildirdi. Beləliklə, Heydər Əliyevi texnikuma qəbul etdik. Mən elə həmin gün yeni tələbəmizi sinfə aparıb uşaqlarla tanış etdim. Qəbuldan sonra bütün müəllimlər mənimlə söhbətlərində ondan razılıq edir, çox istedadlı, fitri qabiliyyətə malik bir uşaq olduğunu vurğulayırdılar. Mən özüm də bunu dərslərimdə görürdüm. Yaşının az olmasına baxmayaraq, özünü bir şəxsiyyət kimi aparırdı. Qətiyyətli, məqsədyönlü, fəal və təşəbbüskar idi. Elmlərə yiyələnmək həvəsi aşıb-daşırdı. Öz düşüncə tərzi, həyata baxışı ilə hamıdan fərqlənirdi. Çox vaxt qoltuğunda kitablar görərdim.

*- Bir çox dahilərin tərcümeyi-halı göstərir ki, onlar ya orta məktəbdə, ya da texnikum və kolleclərdə, universitetlərdə o qədər də yaxşı oxumamışlar. Bəs Heydər Əliyev necə oxuyurdu?*

- Heydər Əliyev bütün fənləri əla oxuyurdu. Hər bir dərsə səylə hazırlaşır, əlavə materiallarla maraqlanırdı. Tələbələr də onu çox sevir, ona hörmətlə yanaşırdılar. O, dərs danışanda sinfə tam sükut çökürdü. Uşaqlar ona diqqətlə qulaq asırdılar. Gözəl nitqi, ifadəli danışıq tərzi var idi.

Heydər Əliyev heç vaxt tək özünü düşünmürdü. O həmişə yoldaşlarının qayğısına qalır, onların problemləri ilə maraqlanır, ehtiyacı olanlara kömək etməyə çalışırdı. Baxmayaraq ki, özünün də ehtiyacları az deyildi.

Müəllimlər hamısı ona hörmət qoyur, çox sevirdilər. Tələbələrindən söz açanda Heydərdən daha çox danışırdılar. Tofiq Bəktaşi deyirdi ki, ondan yaxşı riyaziyyatçı olacaq, onda riyazi təfəkkür çox yüksəkdir. Tarix müəllimi bildirirdi ki, Heydər tariximizi dərindən öyrənir, ciddi maraqlanır, o, yaxşı tarixçi olacaq. Mən isə fikirləşirdim ki, Heydər Əliyev ən yaxşı ədəbiyyatçı, dilçi olacaq. İfadəli, aydın, səlis nitqi, gözəl xətti, savadlı yazısı var idi. Bədii təfəkkürü də çox yüksək idi. Həmişə mütaliə edirdi. Ən çətin ərəb və fars sözlərini belə düzgün tələffüz edir və yerində də düzgün işlədirdi.

*- Sonralar Heydər Əliyevlə əlaqə saxlamısınızmı? Ümumiyyətlə, onunla neçə dəfə görüşmüsünüz?*

- Texnikumdan sonra Heydər Əliyevlə uzun müddət görüşə bilmədim. Bildiyimiz kimi, Moskvada, Sankt-Peterburqdakı təhsilindən sonra o, Azərbaycana gəldi, müxtəlif yüksək vəzifələrdə çalışdı. Sovetlər dövründə Azərbaycanın rəhbəri oldu. İrəli çəkilərək Sovet dövlətinin ən yüksək rəhbər vəzifələrindən birinə təyin edildi. Tarixdə ilk dəfə olaraq türk-müsəlman SSRİ kimi super dövlətin başında duranlardan biri oldu... Amma ona qibtə edənlər, paxıllıq edənlər, düşmən mövqeyində duranlar da tapıldı. Heydər Əliyev yenidən Naxçıvana - doğma elinə, yurduna, torpağına qayıtmalı oldu...

Bir gün Heydər Əliyevin görüşünə getdim. O, məni görüncə çox sevindi. Mənim sağ-salamat olmağımdan məmnun qaldı. Oturub xeyli söhbət etdik. Keçmiş günləri xatırladıq...

1993-cü ilin baharı idi. Heydər Əliyevin 70 yaşı tamam olurdu. Yanına gedib onu təbrik etdim. O da bildi ki, mənim də 90 yaşım tamam olur. O vaxt müavinini çağırıb tapşırıq verdi ki, Lətif müəllimin 90 illiyini Naxçıvanda təntənəli qeyd etmək lazımdır. Özüm də məruzəçi olacağam. Amma iş elə gətirdi ki, Azərbaycanda məlum hadisələr nəticəsində Heydər Əliyev respublika rəhbərliyinə dəvət olundu.

Böyük öndərlə bir görüşüm də Naxçıvan MR-in 75 illik yubileyində olub. Heydər Əliyev bu barədə fərman vermişdi. Yubiley tədbirinə özü gəldi. Təntənəli mərasimdə çıxış edərək müəllimlərini xatırladı. Mənim adımı birinci çəkdi, böyük təvazökarlıq və sadəlik nümunəsi göstərərək mənim əməyimə yüksək qiymət verdi və məni özünün ən sevimli müəllimi adlandırdı...

Heydər Əliyevlə son görüşüm 2002-ci il avqustun 12-də oldu. Prezident Heydər Əliyevin fərmanı ilə Naxçıvanda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi təşkil edilirdi. Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda bölmənin yaradılmasına həsr olunmuş müşavirədə görüşdük.

...Cənab Heydər Əliyev bu müşavirədə də mənim fəaliyyətim haqqında xeyli danışdı. Əməyimə yüksək qiymət verdi. Mənim anadan olmağımın 100, elmi-pedaqoji fəaliyyətimin 80 illiyinin keçirilməsi haqqında Naxçıvan MR Ali Məclisinə göstəriş verdi. Onun mənə göstərdiyi bu qayğı və diqqəti heç vaxt unuda bilmərəm...

**Müsahibəni apardı:**
**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi", 9 may 2007-ci il*

# “Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi”

## Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri elmi-praktik konfransda çıxış edib

**Avqustun 16-da Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində “Ətraf mühitin gücləndirilməsi: maarifləndirmə və hüquq mühafizə tədbirlərinin rolu” ECOLEAD layihəsi çərçivəsində “Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi” mövzusunda elmi-praktik konfrans keçirilib.**











APA-nın xəbərinə görə, konfransda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər şəxslər iştirak edib.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfrans iştirakçılarını salamlayan Baş prokuror Kamran Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz beynəlxalq miqyasda nüfuzunu gücləndirir, eləcə də ölkəmizdə iri layihələrin icrası sürətlə davam etdirilir.

Qarabağ və digər ərazilərimizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə aparılan titanik layihələrə toxunan Baş prokuror işğaldan azad olunan şəhər və kəndlərimizin yenidən qurulduğunu diqqətə çatdırıb.

Vurğulanıb ki, bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycan Respublikasında keçirilməsi ölkəmizin tarixinə qızıl hərflərlə yazılacaq.

Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi işğalçı siyasətin acı nəticələrindən birinin ölkəmizin su ehtiyatlarının yararsız vəziyyətə gətirilməsi olduğuna diqqət çəkən Baş prokuror bunun nəticəsində Azərbaycan əhalisinin illərdir Qarabağda olan zəngin su ehtiyatlarından məhrum qaldığını vurğulayıb.

Bundan başqa, “BMT-nin Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında 1991-ci il Konvensiyası (ESPO), “Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında” BMT-nin 1992-ci il tarixli Konvensiyası, eləcə də həmin Konvensiyanın “Su və sağlamlıq haqqında” 1999-cu il 17 iyun tarixli Protokollarından irəli gələn öhdəliklərin Ermənistan tərəfindən kobud şəkildə pozulması xüsusi qeyd olunub.

Elmi-praktik konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ermənistan tərəfindən metalların zəhərli tullantılarının həm Araz çayına, həm də “Şir arxı”na axıdılmasının burada olan yüzlərlə köçəri quş və balığın məhvi ilə nəticələndiyini, Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsinin bu gün də davam etdiyini və bunun Arazqırağı ərazilərdə fauna və floranın məhvinə səbəb olmasını qeyd edib.

Konfransda Baş prokurorun müavini Heydər Məmmədov, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Regional Su Meliorasiya Xidmətinin rəisi Zakir Quliyev, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Aparatının rəhbəri Mətin Kərimli, Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Bakı Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Baş Prokurorluğun idarə prokuroru Elşad Ağayev tərəfindən çıxışlar edilib və mövzu ətrafında səmərəli müzakirələr aparılıb.

Daha sonra konfrans iştirakçıları tərəfindən “Azərbaycan Respublikasında ekoloji siyasətə dair” və “Azərbaycan Respublikasında ekoloji hüquqpozmalara qarşı mübarizə” mövzularında vidoçarxlar izlənilib.

Sonda Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlıq barədə anlaşma memorandumuna uyğun olaraq təsis edilmiş “Maarifləndirmə və hüquq-mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi” (ECOLEAD) layihəsinə Naxçıvan Dövlət Universitetinin tərəfdaş qismində qoşulmasına dair sənəd imzalanıb.

# “Öz tələbələrimizi həm də Türkiyə-Azərbaycan Universitetinin gələcək müəllimləri kimi yetişdirəcəyik”

## Türkiyəli professorlar hədəfləri açıqladılar

**Məlum olduğu kimi, Türkiyə-Azərbaycan Universiteti 2024-2025-ci tədris ili üçün “Kompüter mühəndisliyi”, “Sənaye mühəndisliyi” və “Qida mühəndisliyi” ixtisasları üzrə tədrisin təşkilini həyata keçirəcək. Tədris ingilis dilində və Orta Doğu Texniki Universiteti (ODTÜ), İstanbul Texniki Universiteti (İTÜ) və Hacettepe Universitetində həyata keçirilən təhsil proqramlarına uyğun aparılacaq.**

**“Azərbaycan müəllimi” Türkiyə-Azərbaycan Universitetinin bölüm rəhbərlərinin tədris prosesi ilə bağlı fikirlərini öyrənib.**

**Türkiyə-Azərbaycan Universitetinin sənaye mühəndisliyi bölümünün rəhbəri Ömer Faruk Beyca İstanbul Texniki Universitetinin sənaye mühəndisi şöbəsində işləyir. Onun sözlərinə görə, sənaye mühəndisliyi resursları səmərəli şəkildə istifadə etmək üçün planlar və optimallaşdırmalar edir:**

**“Əslində, bu sahə kompüter mühəndisliyi və digər mühəndislik sahələri ilə birbaşa əlaqəlidir. Buna görə də, yaxşı mühəndisin həm riyazi, həm də kompüter elmləri sahəsində bacarıqları yüksək səviyyədə olmalıdır. Bildiyimiz kimi, hazırda böyük bir məlumat sıxlığı var və biz bu informasiyalardan anlamlı məzmun çıxararaq resursları optimallaşdırmalıyıq”.**







### “Türkiyədən gələn koordinatorlar il boyu universitetdə olacaq”

Ö.Beyca bildirib ki, üç proqramın bir universitetdə tətbiq edilməsi olduqca təqdirəlayiqdir:

“Türkiyənin elmi təcrübəsini və ən çox seçilən 3 universitetinin professorlarını bura gətirmək böyük üstünlük olacaq. Düşünürəm ki, bu, həm Türkiyəyə, həm də Azərbaycana çox müsbət töhfələr verəcək. Tədris prosesinə nəzarət məqsədilə İTÜ, ODTÜ və Hacettepe-dən təyin edilmiş koordinatorlar il boyu universitetdə olacaq”.

O vurğulayıb ki, Azərbaycanda sənaye mühəndisliyi sahəsi daha çox istehsal yönümlüdür:

“Ona görə də, xüsusən qız tələbələrimiz bu bölümü seçməkdə bir az tərəddüd edirlər. Türkiyədə isə məzunlarımız daha çox xidmət sektorunda çalışırlar. Bu səbəbdən həm oğlan, həm də qız tələbələrimiz üçün bir çox üstünlükləri olan perspektivli şöbədir. Onu da əlavə etmək istərdim ki, xüsusilə bazarın ehtiyaclarına uyğun şəkildə, biz İstanbul Texniki Universiteti olaraq yaxın gələcəkdə tədris planımızı tamamilə yeniləyəcəyik. Yeni proqramı, əsasən, data elmləri sahəsinə istiqamətləndirmişik. Beləliklə, kursumuzu bitirən tələbələrin əksəriyyəti biznes və data analitiki olaraq işləməyə başlayacaqlar”.

### “Tələbələr minimum (yetərlilik) imtahanı verəcəklər”

Türkiyə-Azərbaycan Universitetinin kompüter mühəndisliyi bölümünün rəhbəri Okan Topçunun sözlərinə görə, ixtisas proqramı Orta Doğu Texniki Universitetinin kompüter mühəndisliyi proqramı ilə eyni şəkildə planlaşdırılıb:

“Semestrin başlanmasından əvvəl tələbələr üçün minimum (yetərlilik) imtahanı keçirəcəyik. Bu imtahandan keçən tələbələr birbaşa tədris prosesinə qoşulacaqlar, imtahandan keçməyən tələbələr isə ingilis dilindən bir il hazırlıq keçdikdən sonra proqrama başlayacaqlar. Ümumilikdə, hazırlıq prosesi ilə bərabər təhsilin 5 il olması nəzərdə tutulur”.

O.Topçu qeyd edib ki, professorlar ODTÜ-dən Bakıya gəlib, tələbələrə dərs keçəcəklər:

“ODTÜ-nün proqramı uzun illər ərzində özünü sübut edib. Tələbələrimizə birinci ildən etibarən həm nəzəriyyə, həm də kompüter mühəndisliyi kurslarını öyrətməyi hədəfləyirik. Onlar məzun olandan sonra ODTÜ-dən də diplom alacaqlar. Məzunlarımız həm Türkiyədə, həm də dünya üzrə bir çox böyük şirkətlərdə çalışa bilərlər. Önəmli universitetlərdə magistr və doktorantura təhsillərini davam etdirə bilərlər. Kompüter mühəndisliyi hazırda müasir dünyada tələb olunan sahələrdəndir. Biz əlimizdən gələni edəcəyik ki, tələbələrimiz gələcəkdə dünya səviyyəli universal mühəndislər olsunlar”.

### “Tələbələrimiz gələcəkdə universitetdə müəllim kimi işləyəcəklər”

Türkiyə-Azərbaycan Universitetinin qida mühəndisliyi bölümünün rəhbəri Umran Uyqun isə Hacettepe Universitetinin əməkdaşıdır. Onun sözlərinə görə, qida mühəndisliyi sahəsinə geniş laboratoriya infrastrukturu lazım olduğundan bu, böyük maliyyə tələb edən bir departamentdir:

“Bildiyiniz kimi, qida sektoru çox əhəmiyyətli bir sahədir. Ona görə də belə bir bölümün açılması da vacib idi. Bəzən qida mühəndisini aqronomla qarışdırırlar. Ancaq bunlar fərqli sahələrdir. Çünki aqronom xammal hazırlayır, qida mühəndisi isə hazırlanan xammalın məhsul kimi ərsəyə gətirilməsi istiqamətində işlər görür. Bu mərhələdəki bütün işlərə qida mühəndisi cavabdehdir. Mən deyərdim, hətta tibdən sonra insan sağlamlığına ən çox təsir edən peşə qida mühəndisliyidir”.

Umran Uyqun qeyd edib ki, hazırda universitetdə magistratura və doktorantura səviyyələrində təhsil mövcud deyil, ancaq gələcəkdə nəzərə alına bilər:

“Hər iki ölkənin imzaladığı bu memorandumdan sonra universitet tədricən inkişaf edəcək. Bütün universitetlər ilk açılanda orada yüksək təhsil növləri olmur. Hesab edirəm ki, 1-2 ilə tədrisin digər növlərinin də təşkili həyata keçiriləcək. Çünki biz burada öz tələbələrimizi həm də Türkiyə-Azərbaycan Universitetinin gələcək müəllimləri kimi yetişdirəcəyik, bizim bir missiyamız da bu olacaq”.

**Günel ABBAS**

# PRİORİTET İSTİQAMƏTLƏR: əməkdaşlıq və təcrübə mübadiləsi

## Nazir müavini Belarusun Peşə Təhsili üzrə Respublika İnstitutunun rektoru ilə görüşüb

**Avqustun 15-də elm və təhsil nazirinin müavini İdris İsayev Belarus Respublikasının Peşə Təhsili üzrə Respublika İnstitutunun (PTRİ) rektoru Valeri Nikolayeviç Qolubovski ilə görüşüb.**

Görüş zamanı Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə PTRİ arasında imzalanan Anlaşma Memorandumu və Tədbirlər Planının icrası ilə bağlı cari vəziyyət, seçilmiş peşə təhsili müəssisələrində Belarus tərəfindən emalatxanaların qurulması, bir sıra ixtisaslar üzrə mühəndis-pedaqoji və inzibati idarəetmə heyətinin PTRİ və Belarusun peşə təhsili kolleclərində ixtisasartırma kurslarında iştirakı, kənd təsərrüfatı maşın və avadanlıqlarının istismarı sahəsində Belarus Respublikasının təcrübəsinin öyrənilməsi məsələləri müzakirə edilib.

Bununla yanaşı, görüş müddətində Belarus Respublikasının peşə təhsili sisteminin strukturu, bu strukturda yer alan qurumların öhdəlik və rolları, peşə ixtisasları üzrə təsnifatın formalaşması, həmçinin peşə təhsilinin idarə edilməsində müvafiq nazirliklərin rolu ilə bağlı müzakirələr aparılıb.

Görüşdə prioritet istiqamətlər üzrə əməkdaşlıq və təcrübə mübadiləsinə dair konkret addımların atılması qərara alınıb.






# "PARLA"

## Təqaüd və inkişaf proqramının iştirakçıları üçün NORM ASC-nin istehsalat zavoduna sahə turu təşkil edilib



**Təhsilin İnkişafı Fondu və "NEQSOL Holding"in birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Parla" təqaüd və inkişaf proqramının iştirakçıları üçün Cənubi Qafqazın ən böyük sement istehsalçısı olan NORM ASC-nin istehsalat zavoduna sahə turu təşkil edilib. Sözügedən səfərin məqsədi tələbələri zavodun iş mühiti və burada baş verən proseslərlə tanış etmək olub.**

Sahə turuna başlamazdan əvvəl iştirakçılar Sağlamlıq, Təhlükəsizlik və Ətraf Mühit (SƏTƏM) qaydaları barədə məlumatlandırılıblar. Daha sonra onlar yüksək standartlara cavab verən və müasir avadanlıqlarla təchiz olunmuş sement və beton laboratoriyaları ilə tanış olublar. Sahə turunun sonunda isə tələbələr sementin istehsal olunma prosesini izləyiblər.

Xatırladaq ki, "Parla" təqaüd və inkişaf proqramı çərçivəsində 50 uğurlu tələbə qız aylıq təqaüd ödənişləri ilə təmin olunur. Bundan əlavə, onlar təcrübə, mentorluq və dünyanın aparıcı universitetlərinin proqramlarına çıxış kimi imkanlardan yararlanırlar.

# Peşə təhsili aldı, sahibkar oldu

## Pəri Rəcəbəliyeva:

## "Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində yaxşı şirniyyatçı yox, sahibkar olmağı da öyrəndim"

**Qənnadçı-şirniyyatçı Pəri Rəcəbəliyeva Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin məzunlarından biridir. Şirniyyata həvəsi uşaqlıqdan başlayıb. İndi deyəcəksiniz ki, şirniyyat sevməyən uşaqmı var? Amma bu uşaq yeməkdən çox, bişirməyə həvəs göstərib. Əli dəftər-kitab tutmadan naqqaş tutub. Kiçik barmaqları anasının bükdüyü şəkərburalara bəzək vurub. Yavaş-yavaş əlini alışdırıb. Bir də onu görüb ki, şirniyyatlarının dadı damağında qalanların əhatə dairəsi genişlənib.Pəri qohum-əqrəbadan sifariş götürüb şirniyyatlar hazırlayır: "Anam marağımı görüb həmişə köməyə çağırardı məni. Sonra ətrafımızdakılar - yaxınlar, qonşular da bişirdiklərimi sevməyə başladılar".**

### Həvəskar şirniyyatçıdan peşəkara doğru

Pəri Rəcəbəliyeva Qəbələ şəhərində doğulub. Təhsilini də elə burada alıb, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində. Elə ətrafındakı insanların, şirniyyatını dadanların təklifi ilə təhsil almağa qərar verib, üz tutub Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinə.

Həvəskar şirniyyatçı qənnadçı-şirniyyatçı ixtisası üzrə təhsil almağa başlayıb: "Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 6 aylıq təhsil müddətində yeni şirniyyatlar öyrəndim. Hər gün həvəslə gedir, çox maraqlı təcrübə və bacarıq qazanır, reseptlərimin siyahısını genişləndirirdim".

### 34 yaşlı şirniyyatçı artıq həm də sahibkardır

Deyir Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ona, sadəcə sevdiyi sənətin sənədini yox, həm də "Gülüm" Şirniyyat evinin də qapılarını açmaqda dəstək verib.Məhz mərkəzdəki təhsili sayəsində peşəkarlıq qazanıb, sahibkara çevrilib. Burada iştirak etdiyi layihə ilə özünün şirniyyat evini açıb: "Gənclərin Biznes Emalatxanası layihəsi keçirilirdi. COBİA ilə birlikdə keçirilən Gənclərin Bines Emalatxanası layihəsinə qatıldım. Qalib oldum və avadanlıqlar aldım".

### "Gülüm"

Aldığı avadanlıqlarla şirniyyat evini yaradıb: "Ötən ilin dekabrında öz şirniyyat evimi açdım".

"Gülüm" şirniyyat evi adını Pərinin balalarının adından götürüb. Qızı Gülayın adının "Gül"ünü, oğlu Ümidin adındakı "üm"lə tamamlayıb üçüncü "bala"sına ad qoyub.

### Şirniyyatçının ilk tortu

Pəri Rəcəbəliyeva hazırlamağa 1 saat sərf etdiyi tortu ilk dəfə özünün 20 yaşında bişirib:

"Tort haqqında məlumatım yox idi. Qayınanam bişirdiyi tortları onun kimi bişirməyə çalışaraq öyrəndim. İlk dəfə öz ad günüm üçün onun resepti ilə bişirdim. Qayınanam sadə biskviti ev kremi ilə bəzəyirdi. Mən onun bu reseptini çox genişləndirmişəm. Keçən il onun 60 illiyinə öz reseptimlə böyük tort bişirdim".

### Əvvəlcə özüm, sonra müştəri

20 yaşından - ad günündən bəri Pəri Rəcəbəliyevanın həyatında da, əl qabiliyyətində də çox dəyişiklik - inkişaf olub: "14 ildə tortumun dadı çox dəyişib. Bişirdiyim şirniyyatın dadına əvvəlcə özüm baxıram. Tortlarıma hər dəfə bir yenilik qatıram, ancaq özüm dadına baxmadığım heç bir şirniyyatı müştərilərimə satmıram".

### Peşəkarlar ailəsinə çevrildilər

Gənc yaşında evlənən Pəriyə qayınanası, həyat yoldaşı dəstək verib, o da uğurla təhsil alıb, artıq sahibkara çevrilib. Özünün bu seçimini indi başqalarına da tövsiyə edir. Deyir tam seçim zamanıdır, gənclər öz peşələrini seçib peşə təhsili müəssisələrinin birində oxusunlar, sonra nəinki peşəkar olsunlar, hətta öz işlərini, bizneslərini qursunlar: "Mən peşə təhsili alaraq Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində, sadəcə yaxşı şirniyyatçı yox, sahibkar olmağı da öyrəndim. 2022-ci ildə məzun olduğum peşə təhsili müəssisəsindən şirniyyatçı sahibkar kimi çıxdım. Məndən sonra elektrik montyoru olan yoldaşım da Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin məzunu oldu".



### 3 bölgədən olan 20 məzuna aktivlər verilib

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Qalib Nəbiyev gənclərə öz işini qurmaqda dəstək verən layihədən danışaraq gənclərin "Biznes emalatxanası"fikrinin hardan qaynaqlandığını açıqlayıb. Onun sözlərinə görə, Dövlət Məşğulluq Agentliyi ölkədə aztəminatlı ailələrə müəyyən qısamüddətli kurslar keçərək onlara aktivlərin verilməsini təmin edir: "Biz də düşündük ki, sahibkar olmaq arzusunda olub amma bu məqsədinə çata bilməyənlər var. Ona görə də bir təşəbbüslə çıxış etdik. Qarşılıqlı öhdəliklərin əksini tapdığı bir memorandum imzaladıq. Məzunlarımız arasında seçilənlər Məşğulluq Agentliyinin meyarlarına uyğun olaraq qiymətləndirilirdilər. İndiyə qədər - Qəbələ, Cəlilabad və Ağdam daxil olmaqla 3 bölgədən olan 20 məzuna aktivlər verilib".

**Ruhiyyə DAŞSALAHLI**

# Vətən müharibəsi veteranı Dövlət Proqramı çərçivəsində ABŞ-də təhsil alacaq

## Habil Hüseynov

## "Magistraturadan sonra fəaliyyətimi süni intellekt mühəndisi kimi davam etdirəcəyəm"

**"Dövlət Proqramı çərçivəsində ABŞ-ın Merilend Universitetində informasiya texnologiyaları ixtisası üzrə magistratura təhsili alacağam. Bu sahə çox populyardır. XXI əsrin ən böyük elmi sıçrayışı bəlkə də bu sahədə olub. Süni intellektə, maşın öyrənməsinə tələbat gündən-günə artır. Hər yerdə - istər biznesdə, istər digər müəssisələrdə süni intellekt texnologiyalarını tətbiq etməklə mühüm irəliləyişlər əldə etmək olur. Bununla bağlı mənim də müəyyən fikirlərim var. Süni intellektin tətbiqi üçün layihələr həyata keçirmək olar. Dövlət Gömrük Komitəsinin Akademiyasında bu sahədə yüksəkixtisaslı mütəxəssis hazırlana bilər".**

**Bu fikirləri AZƏRTAC-a müsahibəsində "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2028-ci illər üçün Dövlət Proqramı"nın iştirakçısı Habil Hüseynov söyləyib.**







Habil Hüseynov hazırda Dövlət Gömrük Komitəsinin Enerji Resursları və Dəniz Nəqliyyatı Baş Gömrük İdarəsinin Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanında gömrük inspektoru və xidmət leytenantı olaraq fəaliyyət göstərir.

"Üç ildir ki, gömrük sahəsində işləyirəm. Bu müddətdə müvafiq qanunvericilik sahəsində, eləcə də çalışdığım vəzifə üzrə müəyyən bilik və bacarıqlar əldə etmişəm. Lakin görürdüm ki, məndə çatışmayan cəhətlər süni intellekt, maşın öyrənməsi sahələri ilə bağlıdır. İnformasiya texnologiyaları üzrə bakalavr dərəcəmin olmaması məni çox geri atırdı. Düşündüm ki, magistratura təhsilimi bu istiqamətdə almalıyam. Öz üzərimdə işləməyə başladım. İngilis dilini öyrəndim. Digər imtahanları verdim. Universitetlərə müraciət etdim. Qəbul oldum", - deyən Habil bakalavr dərəcəsini Azərbaycan Texniki Universitetində mexanika mühəndisliyi üzrə alıb.

H.Hüseynov 2020-ci ildə universiteti bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmət müddətində, eyni zamanda, Vətən müharibəsinin ilk günlərindən başlayaraq Şuşa istiqamətində döyüşlərədək iştirak edib. Noyabrın 1-də Topxana meşəsində yüngül qəlpə yarası alsa da, döyüş yoldaşları ilə birlikdə yoluna davam edib. Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Xocavəndin, Şuşanın, Füzulinin işğaldan azad edilməsinə görə medallarla, habelə Müdafiə Nazirliyinin "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunub. O, Vətən müharibəsi veteranıdır.

Müsahibimiz həm işlədiyi sahədə, həm də öz üzərində daim inkişaf etməyə çalışır. Asudə vaxtlarında elmi-fəlsəfi kitablar da oxuyur. Hər ay müxtəlif seminarlarda, kurslarda iştirak edir.

"Dövlət Proqramı çərçivəsində təhsil alıb geri döndükdən sonra ilkin məqsədim Dövlət Gömrük Komitəsində süni intellekt, maşın öyrənməsi mühəndisi kimi fəaliyyət göstərməkdir. Gömrük Komitəsinin bu ildən həyata keçirdiyi Avtomatlaşdırılmış Risk Analizi Sistemi süni intellektə əsaslanır. Ola bilsin ki, gələcəkdə süni intellektə əsaslanan belə layihələrin işğaldan azad edilmiş ərazilərdə tətbiqində iştirak edərəm", - deyə Vətən müharibəsi veteranı qeyd edir.

Həmsöhbətimiz Dövlət Proqramı iştirakçısı kimi təəssüratlarının da böyük olduğunu söyləyir: "Dövlət Proqramına seçim çox şəffaf, müsahibə prosesi dolğun, gözəl keçdi. Eyni zamanda, özümə inanırdım, dediklərimə, danışdıqlarıma güvənirdim. Əmin idim. Nə istədiyimi bilirdim. Düşünürdüm ki, təhsil təqaüdünü, böyük ehtimal, qazanacağam və qazandığımı da eşitdikdən sonra keçirdiyim hissləri sözlə ifadə etmək çətindir. Dövlət Proqramını İdarəetmə Qrupuna dərin təşəkkürümü bildirirəm".

**"Hər yerdə - istər biznesdə, istər digər müəssisələrdə süni intellekt texnologiyalarını tətbiq etməklə mühüm irəliləyişlər əldə etmək olur. Bununla bağlı mənim də müəyyən fikirlərim var.**

**İnformasiya texnologiyaları üzrə bakalavr dərəcəmin olmaması məni çox geri atırdı. Düşündüm ki, magistratura təhsilimi bu istiqamətdə almalıyam.**

**Dövlət Proqramı çərçivəsində təhsil alıb geri döndükdən sonra ilkin məqsədim Dövlət Gömrük Komitəsində süni intellekt, maşın öyrənməsi mühəndisi kimi fəaliyyət göstərməkdir.**

**Dövlət Proqramına seçim çox şəffaf, müsahibə prosesi dolğun, gözəl keçdi".**

# "Dövlət Proqramına doktorantura təhsilinin əlavə edilməsi geniş perspektivlər vəd edir"

*İnqilab Şahbazov:* "Proqram çərçivəsində ali təhsilin doktorantura səviyyəsində ölkənin sosial-iqtisadi inkişafı üçün vacib olan ixtisaslara üstünlük veriləcək"



**Xəbər verdiyimiz kimi, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" ölkə başçısının 2022-ci ildə imzaladığı Sərəncama dəyişiklik edilib. Dəyişikliyə əsasən, proqramın müddəti 2028-ci ilədək uzadılıb. Həmçinin Dövlət Proqramına doktorantura səviyyəsi də əlavə edilib.**

Sözügedən məsələ ilə bağlı fikirlərini "Azərbaycan müəllimi"nə açıqlayan ADA Universitetinin müəllimi, sosioloq, hazırda Kembric Universitetində doktorantura təhsilini davam etdirən İnqilab Şahbazovun sözlərinə görə, proqramın faydaları uzunmüddətli perspektivdə hiss olunacaq:

"Proqram 2019-cu ildə başlayıb və sevindirici haldır ki, növbəti dörd il ərzində də davam edəcək. Nəzərə almalıyıq ki, ali təhsil pilləsinin doktorantura təhsil səviyyəsi bakalavriat və magistraturadan fərqli olaraq dəfələrlə az insan tərəfindən hədəflənir. Onu oxumaq və öyrəndiklərini digərlərinə ötürmək, ölkəmizdə tətbiq etmək və s. bir neçə il tələb edir. Hesab edirəm ki, proqram çərçivəsində ali təhsilin doktorantura səviyyəsində ölkənin sosial-iqtisadi inkişafı üçün vacib olan ixtisaslara üstünlük verilməsi, Azərbaycanın elmi potensialını gücləndirəcək, elmi və texniki bilikləri artıracaq, bununla yanaşı, elmi yaradıcılığı inkişaf etdirəcək, elmi biliklərin yayılmasına müsbət təsir göstərəcək".

İ.Şahbazov qeyd edib ki, son illər ali təhsilimizdə müşahidə olunan dəyişikliklərdən biri də universitetlər arasında tədqiqat metodlarının öyrədilməsinə artan diqqətdir:

"Artıq onlarla ali təhsil müəssisələrində humanitar elmlərdə tədqiqat metodları tədris edilir. Onların tədrisində magistrantlarla yanaşı doktorantlar da yer alır, ancaq saylarının artmasına ehtiyac var. Məhz adıçəkilən proqramın bu cəhətdən kadr çatışmazlığının həllində faydalı olacağına inanıram.

Bu proqramın başqa bir faydası ali təhsil müəssisələrinin reytinqləri ilə bağlı olacaq. Reallıq budur ki, universitetlərin reytinq siyahıları bir çox tələbələrin seçiminə təsir edir. Ölkəmizə gələn xarici tələbələrin sayını artırmaq cəhətdən bu siyahılarda yüksəliş təsirli ola bilər. PhD dərəcəsi olan və ya hazırda PhD proqramında təhsil alanlar tədqiqat və məqalələr dərc etmək üçün yaxşı mövqedədirlər. Ona görə də onlar bizim universitetlərin qlobal reytinqlərdə mövqeyini qaldıra bilərlər".

**Günel ABBAS**

# BMU-nun 83 tələbəsi Koreyada təhsil alacaq

## Onlar hər iki universitetin diplomunu əldə edəcəklər




**Bakı Mühəndislik Universiteti ilə İNHA Universiteti arasında icra olunan beynəlxalq ikili diplom proqramı (BMU-İNHA İDP) çərçivəsində 83 tələbə IV kursu Koreya Respublikasında təhsil alacaq. Təhsillərini davam etdirmək üçün 17-18 avqust tarixlərində Koreyaya yola düşən 2021/2022-ci tədris ili proqramının tələbələri artıq İnçon şəhərinə yerləşiblər.**

"Azərbaycan müəllimi" xəbər verir ki, sonuncu kursu cari il sentyabr ayının 2-dən etibarən İNHA Universitetində davam etdirəcək 83 tələbə 19 avqustdan etibarən yeni mühitdə tədris prosesinə çevik uyğunlaşmaq məqsədilə intensiv şəkildə baza əsaslı dərslərə qatılırlar.

Tədrisi 3+1 modeli əsasında qurulan proqramın şərtlərinə əsasən, tələbələr bakalavriat səviyyəsində informasiya texnologiyaları, inşaat mühəndisliyi, elektrik mühəndisliyi və elektronika mühəndisliyi ixtisasları üzrə 3 akademik ili BMU-da, 1 akademik ili - sonuncu kursu isə İNHA Universitetində təhsil almalıdırlar.

Tədris ilini uğurla başa vuran tələbələr hər iki universitetin diplomunu əldə edəcəklər.

BMU-İNHA İDP "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilir.

# Xaricdə təhsil aldı, çempion oldu, KƏND MƏKTƏBİNİ SEÇDİ

## MÜƏLLİMLƏR – Uğur yolumuzun bələdçiləri...

**Uşaqlıqdan müəllimi, əsasən, sual verən tərəf kimi görməyə öyrəşmişik. Amma bu dəfə müəllimlər onlara ünvanlanan sualları cavablamağa, intellektual səviyyələrini nümayiş etdirməyə gəliblər. Paytaxtdakı 161 nömrəli məktəbin qarşısında sözün əsl mənasında, izdiham hökm sürür. Biri valideyni, biri həyat yoldaşı, digəri isə övladı ilə binanın önündə dayanıb. Onların hamısının bir məqsədi var. Müəllimlərin işə qəbulu üzrə müsabiqəsinin müsahibə mərhələsindən uğurla keçib, yeni tədris ilində ilk şagirdlərinin qarşısına çıxmaq. Bizim də məqsədimiz bəllidir. “Yüz eşitməkdənsə, bir dəfə görmək yaxşıdır” - deyib, müsahibə mərhələsi ilə bağlı prosesin necə təşkil olunduğunu oxucularımızın diqqətinə çatdırmağa gəlmişik.**

**Məktəbin yan tərəfində diplomunu sinəsinə sıxıb dayanan bir xanım diqqətimi çəkir. Elə həyəcanlıdır ki, yaxınları onu sakitləşdirmək üçün nə qədər cəhd göstərsələr də, kifayət etmir. Vəziyyəti müşahidə edə-edə onlara yaxınlaşıram. Niyə bu qədər həyəcanlı olduğunu soruşuram. Axı, bundan daha çətin və məsuliyyətli olan test imtahanı mərhələsindən uğurla keçib. Mənimlə razılaşmır, deyir ki, ikinci mərhələ daha vacibdir, çünki kompüter önündə əyləşib düzgün bəndləri işarələməklə, kamera və komissiya üzvləri qarşısında fikirlərini ifadə etmək eyni deyil. Anası da onu təsdiqləyir, deyir ki, belə anlarda bildiyini də unudur.**

**Bir neçə addımlığımızda təlaş hissindən tamamilə uzaq bir namizəd dayanıb. Elə ürəklə danışır ki, yaxınlaşıb həmsöhbət olmaq, təəssüratlarını öyrənmək istəyirəm. Hərhalda müsahibə üçün yaxınlaşdığımı sezir və özünü təqdim edir.**

### “Təhsilin tətbiqi sahəsində yeniliklər edib şagirdlərimizin inkişafı üçün çalışacağam”

Bərdə rayonundan müsahibə mərhələsi üçün gələn Bəylər Əliyev deyir ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində Biologiya müəllimliyi ixtisasını bakalavr, Düzcə Universitetində Təhsil proqramları və tədris mütəxəssisi ixtisasını isə magistratura səviyyəsi üzrə bitirib: “MİQ-in test imtahanından 65 bal toplayaraq Bərdə rayonunda vakant yerə qəbul olmuşam. Müsahibə mərhələsinə isə təhsil aldığım müddətdə öyrəndiyim səriştələr vasitəsilə hazırlaşmışam. Əlavə olaraq öz üzərimdə işləməyi sevirəm, ölkəmizin tarixi, mədəniyyəti, elmi barədə daim araşdırmalar edirəm. Türkiyədə təhsil aldığım müddətdə isə təhsil proqramlarının tətbiqinin dünya təcrübəsindəki yeri ilə tanış olmuşuq. Hədəfim gələcəkdə Azərbaycan təhsilində yeniliklər etməkdən, yeni iz buraxmaqdan ibarətdir”.

B.Əliyev deyir ki, müəllim şagirdlərlə daim ünsiyyətdə olduğu üçün məlumatlı olmalı, öz üzərində çalışmalıdır.

Söhbətimizin bu yerində qapılar açılır və iştirakçıları növbə ilə içəri qəbul edirlər. Onlarla bir yerdə biz də içəri keçirik. Əvvəlcə namizədlərin müvafiq sənədləri yoxlanılır. Qeydiyyat şöbəsinin yanında dayanan gənc xanım magistratura diplomunu gətirməyi unudub.

Bir neçə dəqiqə sonra qeydiyyat şöbəsinə nəzarət edən nümayəndə yaxınlaşıb xanımın imtahanda iştirak edə bilməyi üçün lazımi köməyin göstərilməsini tapşırır. Xanımın qorxu içində qızarmış gözlərini indi sevinc bürüyür. İri addımlarla imtahan zalına gedir. Mən də onu izləyirəm.

### “Bütün suallar ixtisasımla bağlı idi”

Müsahibədə iştirak etmiş namizədlərdən biri artıq zaldan çıxır. İngilis dili üzrə imtahan verən Mətanət Quliyeva deyir ki, MİQ-in test imtahanından 83,75 bal toplayıb: “Azərbaycan Dövlət Xarici Dillər Universitetində təhsil almışam. Hazırda Ağdam rayon orta məktəbində çalışıram. Müsahibədən keçdiyim halda bundan sonrakı fəaliyyətimi Ağdam rayon Üçoğlan kənd məktəbində davam etdirəcəyəm. Əvvəlcədən müəllim kimi çalışdığım üçün imtahanlara xüsusilə hazırlaşmamışam. Bütün suallar ixtisasımla bağlı idi”.

M.Quliyeva deyir ki, müəllim şagirdlərlə dost olmalı, onların qəlbini qazanmalıdır: “Hər bir ixtisası ilə bağlı bilgiləri dərindən mənimsəməli, ümumi dünyagörüşünə malik olmalıdır”.

Zala yaxınlaşıb prosesi müşahidə edirəm. Müəllimlərdən birinin nitqi xüsusi diqqətimi çəkir. Komissiya üzvləri də maraqla sözünü kəsmədən dinləyirlər. Müsahibəsini bitirənə qədər gözləyib, onunla həmsöhbət oluram.

### “Həm test imtahanı, həm də müsahibə sualları maraqlı və düşündürücü idi”

Masallı rayon kənd məktəbinin müəllimi Azad Mustafayev deyir ki, bu, imtahana ikinci gəlişidir: “Lənkəran Dövlət Universitetində Coğrafiya müəllimliyi ixtisası üzrə təhsil almışam. 3 ildir ki, Masallı rayon N.Nərimanov adına 2 nömrəli tam orta məktəbin müəllimiyəm. Bu dəfə imtahana gəlişimin səbəbi başqa bir məktəbdə də müəllim kimi çalışmaq istəyimdir. Qəbul olsam, Masallı rayon Ərəb kənd orta məktəbində fəaliyyətə başlayacağam. MİQ-in test imtahanından isə 83,25 bal toplamışdım. Müsahibə mərhələsindən olduqca razı qaldım. Komissiya üzvləri namizədlərə xoş münasibət göstərir.

Həm test imtahanı, həm də müsahibə sualları kifayət qədər maraqlı və düşündürücü idi, çox gözəl hazırlanmışdı. Müsahibədə həm dünyagörüşü, həm ixtisasımız, həm də kurikulumla bağlı suallar verildi”.

Bu gün ikinci iş yeri üçün imtahana gələn müəllimlərimiz arasında Tovuz rayon Şamlıq kəndinin texnologiya və təsviri incəsənət müəllimi Vüsalə Xəlilova da var: “Azərbaycan Dövlət Pedaqoji Universitetində peşə təlimi üzrə ali təhsil almışam. Hazırda Builki MİQ imtahanında 66 bal toplayaraq Hacılar kənd tam orta məktəbində vakant yerə uyğun görülmüşəm. Həm MİQ-in test imtahanında, həm də müsahibə mərhələsində nəzərdə tutulmuş mövzulardan kənar hansısa bir sual yoxdur, deyə düşünürəm”.

### “Müəllimlərimizin ixtisas və psixoloji vəziyyətlə bağlı imtahan verməsini zəruri hesab edirəm”

Vüsalə müəllim deyir ki, o öz peşəsinin vurğunudur: “Müəllim hər bir şagirdə öz övladı kimi yanaşmalı, ona həm elm verməli, həm də nizam-intizamına, xarakterinin formalaşmasına nəzarət etməlidir. Buna görə də mən müəllimlərimizin ixtisas və psixoloji vəziyyətlə bağlı imtahan verməsini zəruri hesab edirəm. MİQ imtahanı bütün bu amilləri tətbiq edə bilən müəllimləri üzə çıxarmaq üçün vacibdir”.

Müsahibəyə öz əl işləri ilə gələn xanımın narahatlığı xüsusi nəzərə çarpır. Onu bir az da olsa, sakitləşdirmək üçün yanında əyləşirəm. Zarafatyana tərzdə, rəsmləri təqdim etmək bu qədər həyəcanlıdırsa, onları çəkmək necədir görəsən, - deyə soruşuram. Nazima xanım gülümsəyərək deyir ki, ən azından rəsmi hazırlayanda adamın əlləri titrəmir. Həyəcanının dağılması üçün fəaliyyəti və gələcək planları barədə soruşuram.

### “Bu mərhələdən də uğurla keçəcəyimə inanıram”

Nazima İsmayılova Şəki Dövlət Regional Kollecinin Təsviri incəsənət müəllimliyi ixtisasını bitirib: “MİQ-in test imtahanından 72 bal toplayaraq Zaqatala rayon Yolayrıc kənd tam orta məktəbində vakant yerə qəbul oldum və müsahibədə iştirak şansı əldə etdim. Bu mərhələdən də uğurla keçəcəyimə inanıram.

Təsviri incəsənət sahəsinə uşaqlıqdan böyük marağım var idi. Ona görə də test imtahanı üçün 5 ay hazırlaşdım, müsahibə mərhələsi üçün isə yanlız özüm məlumatlar əldə etmişəm”.

Müsahibə zalından bir xanım iri addımlarla pilləkənlərə tərəf gedir. Yaxasında medal olduğunu görüb, müsahibə üçün dayandırmaq istəyirik. Bir neçə saniyə ayaq saxlayıb deyir ki, rayona gedən avtobusa çatmaq üçün tələsir. Yaxasındakı medalını soruşuram. Respublika çempionu olduğunu, müsahibəyə də fiziki tərbiyə ixtisasından imtahan verməyə gəldiyini bildirir.

Həmkarım Aytəkin də yanımdadır. Müəllimliyə namizədin təlaş içərisində olduğunu görüb, təşvişini azaltmaq üçün zarafatla deyir ki, biz elə bilirdik ki, siz çempionlar ancaq finiş nöqtəsinə çatmaq üçün qaçırsınız. Xanım arxaya dönüb gülümsədi və fikrini yayındırmadan qaçmağa davam etdi.

Pilləkənlərdən düşəndə Bəylər müəllimin bizi səslədiyini eşidib ayaq saxlayırıq. Bəli, ona artıq müəllim demək olar, çünki müsahibədə komissiya üzvləri özünü təqdim etmə və digər sualları cabablandırmağından olduqca razı qalıblar. O, müsahibənin uğurlu keçməsinin verdiyi rahatlıq hissi ilə söhbətimizin əvvəlində söylədiyi fikirləri bir daha vurğulayır: “Təhsilin tətbiqi sahəsində yeniliklər edib şagirdlərimizin inkişafı üçün çalışacağam”.

Bu gün imtahanda müəllim adını qazanmaq istəyən digər müəllimlərin də Bəylər müəllim kimi bir arzusu var. Öz bilik və bacarıqlarını şagirdlərinə ötürmək. Onlar öyrətməyi sevdikləri qədər, öyrənməyə də can atırlar. Daim yenilikləri öyrənmək, bütün sahələrdən məlumatlı olmaq kimi böyük bir məsuliyyəti çiyinlərində daşıyan müəllimlərimizin əməkləri əvəzedilməzdir.

Amalı hər zaman cəmiyyətə faydalı bir vətəndaş yetişdirmək olan, uğur yolumuza bələdçilik edən müəllimlərimizə məsuliyyətli və şərəfli peşənin ilk addımlarında uğurlar arzu edirik!

**Günel ABBAS**
**Foto: Kənan QAFAROV**











# Uğur hekayələri

# Beynəlxalq Riyaziyyat Müsabiqəsində ölkəmizi uğurla təmsil etdilər – ADA-nın medalçıları

**Son illər yeniyetmə gənclərimizin müxtəlif fənlər üzrə bilik müsabiqələrinə, olimpiadalara marağı artmaqdadır. Əsası məktəb illərindən qoyulan bilik yarışlarına, olimpiadalara olan həvəs illər keçdikcə bir istəyə çevrilməklə yanaşı, gələcək uğurların qazanılmasında həm də tramplin rolu oynamaqdadır.**

**“Azərbaycan müəllimi”nin haqqında söz açacağı gənclər də elə müsabiqə qalibləridir. ADA Universitetinin tələbələri İbrahim Ağazadə, Nihat Məmmədli, İlkin Həsənov və Rəsul Qasımlı Bolqarıstanda keçirilən Beynəlxalq Riyaziyyat Müsabiqəsində öz biliklərini nümayiş etdirərək uğurlu nəticə göstəriblər. Belə ki, istedadlı gənclərimiz adıçəkilən müsabiqədə iki bürünc medal, Fəxri Fərman (Honorary Mention) və sertifikat əldə ediblər.**




## “Keçilən xüsusi dərslər və hazırlıq prosesi içimizdə tam əminliklə medalla qayıdacağıq hissini formalaşdırmışdı”

## “Gənclərin bilik və bacarıqlarının, istedadlarının üzə çıxarılmasına imkan yaradan gözəl bir fürsət”



Yeni tədris ilindən ADA Universitetinin II kursunda təhsil alacaq İbrahim Ağazadə 2006-cı ildə Cəlilabad şəhərində anadan olub. Cəlilabad şəhərindəki 8 nömrəli tam orta məktəbin məzunudur. Məktəb illərindən müxtəlif olimpiadalarda və intellektual yarışlarda iştirak edərək çox sayda medallar qazanıb. Respublika fənn olimpiadalarında riyaziyyat fənni üzrə 2021-ci ildə bürünc, 2023-cü ildə isə qızıl medala layiq görülüb. “Xəmsə”, “Kim? Nə? Hara” intellektual bilik yarışmalarında da qızıl və gümüş medallar əldə edən gəncimiz, həmçinin “Breyn rinq” yarışmasının region turunda iştirak edib.

Olimpiadaların, müxtəlif müsabiqələrin yeniyetmə və gənclərin bilik və bacarıqlarının, istedadlarının üzə çıxarılmasına imkan yaradan gözəl bir fürsət olduğunu söyləyən İbrahim Ağazadə tələbəsi olduğu ADA Universitetinə də elə 2003-cü ildə Respublika fənn olimpiadasının qızıl medalçısı olaraq müsabiqədənkənar qəbul olunub. Arzuladığı ali təhsil müəssisəsi və “Kompüter elmləri” ixtisası... Respublika fənn olimpiadalarının riyaziyyat fənni üzrə qızıl medalçısı olmaq ona bu gözəl imkanı qazandırıb. Gəncimiz seçdiyi ali təhsil müəssisəsinin tələbəsi olmaqdan olduqca məmnundur: “ADA-da dərslərin ingilis dilində tədris olunması mənim üçün böyük üstünlükdür. Həmçinin müəllim heyətinin xarici və yerli savadlı mütəxəssislərdən təşkil olunması mənə ADA-nı seçməyimin necə bir düzgün qərar olduğunu göstərdi”.

Bolqarıstanda keçirilən Beynəlxalq Riyaziyyat Müsabiqəsində iştirak etmək onun üçün maraqlı olduğu qədər, eyni zamanda gələcək arzularının reallaşmasında da mühüm rol oynayır: “Beynəlxalq Riyaziyyat Müsabiqəsində, açığı, medal alacağımı fikirləşmirdim. 1-ci kursda idim və ingilis dilini daha mükəmməl öyrənməyə fokuslanmışdım, ancaq müsabiqə öncəsi Yaqub müəllimin, Rafael müəllimin, Elçin müəllimin və Vüqar müəllimin keçdikləri dərslərin mənə olduqca xeyri oldu və bürünc medal qazandım”.

Həmsöhbətimiz ali təhsil aldığı müddətdə müxtəlif olimpiadalarda və bilik yarışlarında mütəmadi olaraq iştirak etməyi düşünür.

## “Adım qaliblər sırasında çəkiləndə qürur hissi keçirdim”

Müsabiqənin digər bürünc medalçısı Nihat Məmmədli 2005-ci ildə Bakıda anadan olub. 2011-2015-ci illərdə Bakı şəhəri 308 nömrəli tam orta məktəbdə təhsil alıb. Sonradan bir müddət orta təhsilini Bakı şəhəri Texniki-humanitar liseyində davam etdirib. Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadasında müxtəlif illərdə gümüş və bürünc medallara layiq görülüb. 2017-ci ildə Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyə qəbul olunan Nihat Məmmədli 2022-ci ildə buranı qızıl medalla bitirib. O, Respublika fənn olimpiadalarında riyaziyyat fənni üzrə 2016-cı ildə gümüş, 2020 və 2021-ci illərdə bürünc, 2022-ci ildə isə növbəti dəfə gümüş medallar qazanıb.

Həmsöhbətimiz bildirir ki, elə orta təhsilini başa vurduğu il SAT imtahanından 1450 bal yığaraq ADA Universitetinin “Riyaziyyat” ixtisasına qəbul olunub. Bu tədris ilindən 3-cü kursda təhsilini davam etdirəcək. Tələbə olaraq uğur qazandığı Beynəlxalq Riyaziyyat Müsabiqəsindən söz açan gəncimiz deyir ki, yarışda dünyanın 60-a yaxın ölkəsindən 401 tələbə qatılmışdı:

“Müsabiqə komanda şəklində deyil, fərdi qaydada keçirilirdi. Yarışın kifayət qədər çətin olduğunu bildiyim üçün, medal qazana biləcəyimdə tərəddüdlü idim. Adım qaliblər sırasında çəkiləndə qürur hissi keçirdim. Ölkəmizdə yeniyetmə və gənclərin müxtəlif olimpiadalarda, bilik yarışlarında iştirakına xüsusi diqqət göstərilir, onların xarici ölkələrdə keçirilən müsabiqələrdə iştirak etmələri üçün hər cür şərait və imkanlar yaradılıb. Bu, çox yaxşıdır. Olimpiada qaliblərinin müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul edilməsi isə yuxarı sinif şagirdləri üçün gözəl motivasiyadır. Beynəlxalq olimpiadalarda uğur qazanmaq, həmçinin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələri tərəfindən də dəyərləndirilir. Mənim üçün belə nüfuzlu müsabiqələrdəki rəqabət həm də biz gənclərin özlərini daim inkişaf etdirməsidir”.

Nihat Məmmədli də ADA-nın tələbəsi olmaqdan qürur duyur. Qeyd edir ki, bu ali təhsil müəssisəsini seçməyinin əsas səbəbi burada tətbiq edilən sistemin



fərqli olması, təhsil mühitinin maraqlı təşkilidir: “Müəllimlərimiz hər zaman bizə dəstək olur, onlara verdiyimiz istənilən sualı həvəslə cavablandırır, həmçinin gələcək həyat yolumuzda uğur əldə etməyimiz üçün doğru yol göstərirlər. Mənim də hədəflərim var və onlara çatmaq üçün özümü daim inkişaf etdirərək böyük uğurlara imza atmaq istəyirəm”.

## “Məktəb vaxtı olimpiadalara hazırlaşmağım mənə çox böyük təcrübə və fərqli düşüncə qazandırıb”



**İlkin Həsənov Bakı şəhəri 323 nömrəli tam orta məktəbin 2022-ci il məzunudur. Bizimlə söhbəti zamanı bildirir ki, IX və XI siniflərdə Respublika fənn olimpiadalarında riyaziyyat fənni üzrə yarımfinala vəsiqə qazansa da, final mərhələsində iştirak edə bilməyib:**

“Buna baxmayaraq, məktəb vaxtı olimpiadalara hazırlaşmağım mənə çox böyük təcrübə və fərqli düşüncə qazandırıb. Bolqarıstanda keçirilən Beynəlxalq Riyaziyyat Müsabiqəsi mənim üçün olimpiada karyeramda dönüş nöqtəsi adlandıracağım bir məqamdır. İlk dəfə idi ki, beynəlxalq səviyyədə keçirilən bir olimpiadada iştirak edirdim. Əlbəttə ki, beynəlxalq səviyyədə olan olimpiada digər yarışlara bənzəmir, çünki siz burada dünyanın hər yerindən qatılmış ən güclü tələbələrə qarşı mübarizə aparırsınız və mənim fikrimcə, bu yarışmanın ən maraqlı olan hissəsidir. Ölkəyə medalla qayıtmağı, əlbəttə, komandamızın hər bir üzvü istəyirdi, lakin buna əvvəlcədən əmin olmaq o qədər də asan məsələ deyildi. Lakin bizə keçilən xüsusi dərslər və hazırlıq prosesi içimizdə sanki tam əminliklə medalla qayıdacağıq hissini formalaşdırmışdı. ADA Universitetinin komandası olaraq biz ölkəmizə 2 bürünc medalla qayıtdıq. Mən özüm isə sertifikata layiq görüldüm”.

Qeyd edək ki, 2022-ci ildə 601 balla ADA Universitetinin “İnformasiya texnologiyaları” ixtisasına qəbul olan İlkin Həsənov hazırda 3-cü kurs tələbəsidir. Bildirir ki, ali təhsil müəssisəsini seçərkən tədris prosesinin fərqli şəkildə təqdimatı, dünyanın ən nüfuzlu universitetləri ilə əlaqələr, təqdim etdiyi tələbə mübadilə proqramları onu ADA Universitetində təhsil almağa sövq edib: “Mənim üçün ADA Universitetini seçməyimdə həm də ən böyük səbəb bu ali təhsil müəssisəsinin olimpiadaçılara ayırdığı diqqət və qayğıdır. Söylədiyimə nümunə olaraq olimpiadaçılar üçün təhsilin tam təqaüdlü olması və onlara beynəlxalq olimpiadalarda iştirakları üçün şans yaradılmasını qeyd etmək olar. Əlbəttə, təcrübəli müəllim heyətini isə xüsusi vurğulamaq istərdim”.

İlkin Həsənov əlavə edir ki, gənclərin bilik müsabiqələrində, olimpiadalarda iştirakı onlara bir çox üstünlüklər qazandırır. Belə ki, olimpiadalar, bilik yarışları şagirdlərin və tələbələrin rəqabətlilik ruhunun ortaya çıxmasına kömək edir. Bunun nəticəsi kimi onlar gələcəkdə öz hədəflərinə daha yaxşı fokuslana və daha inamlı addımlar ata bilirlər. Ən vacib olan məqamlardan biri də istər yerli, istərsə də beynəlxalq olimpiadalarda iştirak etmək gənclərimizin bir çox istedadlı insanla tanış olmasında, həmçinin sosiallaşma bacarıqlarının daha da yaxşılaşmasında əhəmiyyətli rol oynamasıdır.

İlkin Həsənov gələcəkdə süni intellekt sahəsi ilə məşğul olmağı düşünür.

## “Növbəti beynəlxalq olimpiadalarda medal qazananlardan biri də mən olacağam”



Rəsul Qasımlı Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 2023-cü il məzunudur. Orta təhsil illərindən olimpiadalara, bilik müsabiqələrinə böyük marağı olub. Respublika fənn olimpiadalarında informatika fənni üzrə 2021-ci ildə gümüş, 2022-ci ildə bürünc və 2023-cü idə növbəti dəfə gümüş medala layiq görülüb. 2023-cü ildə ADA Universitetinin “Kompüter elmləri” ixtisasına müsabiqədənkənar qəbul olub. Hazırda universitetin II kurs tələbəsidir.

Bolqarıstanda keçirilən Beynəlxalq Riyaziyyat Müsabiqəsində Fəxri Fərmana (Honorary Mention) layiq görülən Rəsul Qasımlı deyir ki, özü medal qazana bilməsə də komanda yoldaşlarının 2 bürünc medal almasına çox sevinir: “Ölkəmizə medalla qayıdacağımıza əmin idim, çünki komanda yoldaşlarımla birgə hazırlaşanda onların yetəri qədər təcrübəli və istedadlı olduqlarını görürdüm. Ümid edirəm ki, növbəti beynəlxalq olimpiadalarda ölkəmə medal qazandıranlardan biri də mən olacağam”.

**Samirə KƏRİMOVA**

## Azərbaycan Respublikasının Elm vəTəhsil Nazirliyi

# Lənkəran Dövlət Universiteti

### vakant yerlər üzrə aşağıdakı qeyd olunan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**1. “Riyaziyyat və informatika” kafedrası üzrə:**

Dosent: 1.0 ştat-1 yer (riyaziyyat üzrə)
Dosent: 0.5 ştat-1 yer (riyaziyyat üzrə)

**2. “Biologiya və ekologiya” kafedrası üzrə:**

Kafedra müdiri: 1.0 ştat-1 yer,
Müəllim: 1.0 ştat-1 yer (ekologiya üzrə)

**3. “Kimya və fizika” kafedrası üzrə:**

Baş müəllim: 1.0 ştat-1 yer (fizika üzrə)

**4. “Tarix və onun tədrisi metodikası” kafedrası üzrə:**

Dosent: 1.0 ştat-1 yer (muzey və arxiv işi üzrə)
Baş müəllim: 1.0 ştat-2 yer (tarix üzrə)
Baş müəllim: 1.0 ştat-1 yer (muzey və arxiv işi üzrə)
Müəllim: 1.0 ştat-1 yer (tarix üzrə)

**5. “Coğrafiya və onun tədrisi metodikası” kafedrası üzrə:**

Dosent: 0.5 ştat- 2 yer (coğrafiya üzrə)

**6. “Pedaqogika, psixologiya və incəsənət fənləri” kafedrası üzrə:**

Baş müəllim: 1.0 ştat-1 yer (musiqi üzrə)
Baş müəllim: 1.0 ştat-1 yer (mədəniyyət və incəsənət fənləri üzrə)
Baş müəllim: 0.5 ştat-1 yer (multikulturalizm üzrə)
Müəllim: 1.0 ştat-1 yer (pedaqogika üzrə)

**7. “Azərbaycan dili və ədəbiyyat” kafedrası üzrə:**

Dosent: 0.5 ştat-2 yer (ədəbiyyat üzrə)
Dosent: 1.0 ştat-1 yer (Azərbaycan dili üzrə)
Baş müəllim: 0.5 ştat-1 yer (Azərbaycan dili üzrə)

**8. “Xarici dillər və tərcümə” kafedrası üzrə:**

Dosent: 1.0 ştat-2 yer (ingilis dili üzrə)
Baş müəllim: 1.0 ştat-1 yer (rus dili üzrə),
Baş müəllim: 1.0 ştat-1 yer (ingilis dili üzrə)

**9.“İbtidai təhsil və məktəbəqədər təlim” kafedrası üzrə:**

Baş müəllim: 1.0 ştat-1 yer (riyaziyyat üzrə)
Baş müəllim: 1.0 ştat-1 yer (məktəbəqədər təlim üzrə)

**10. “Maliyyə idarətməsi və audit” kafedrası üzrə:**

Müəllim: 1.0 ştat-1 yer (maliyyə və mühasibat üzrə)
Müəllim: 0.5 ştat-1 yer (maliyyə və mühasibat üzrə)

**“İqtisadiyyat və innovativ idarəetmə” kafedrası üzrə:**

Baş müəllim: 1.0 ştat-1 yer (iqtisadiyyat üzrə)
Baş müəllim: 0.5 ştat-1 yer (iqtisadiyyat üzrə)

**12. “Texnologiya və texniki fənlər” kafedrası üzrə:**

Dosent: 0.5 ştat-1 yer (qida məhsullarının texnologiyası üzrə)
Baş müəllim: 0.5 ştat-1 yer (qida məhsullarının texnologiyası üzrə)
Müəllim: 1.0 ştat-1 yer (informatika fənləri üzrə)

**13. “Baytarlıq və zoomühəndislik” kafedrası üzrə:**

Dosent: 1.0 ştat- 1 yer (baytarlıq üzrə)
Dosent: 0.5 ştat- 1 yer (baytarlıq üzrə)

**14. Təbiyyat fakültəsi üzrə:**

Dekan: 1.0 ştat

**15. Baytarlıq fakültəsi üzrə:**

Dekan: 1.0 ştat

**Qeyd:** Ərizələrin qəbulu bu elan dərc edildikdən sonra 1 (bir) ay müddətindədir. Əsasnaməyə uyğun olaraq sənədlər (kadrların şəxsi qeydiyyat vərəqəsi, tərcümeyi-hal, ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti, dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı) rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Ünvan:** Lənkəran şəhəri, H.Aslanov xiyabanı-50
**www.lsu.edu.az, E-mail: office@lsu.edu.az**
**Telefon:** (02525) 5-25-88, (daxili-105)


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan nəşriyyatı” MMC, 9-cu mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 35836 **Sifariş** 1909
**Məsul növbətçi:** O.Mustafayev


## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Sumqayıt Dövlət Universiteti

### ştatda vakant olan vəzifəni tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedra müdiri**

İnformasiya texnologiyaları kafedrası - 1 yer

**Qeyd:** Sənədlər elan dərc olunan gündən bir ay (30 gün) müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər.

**Ünvan: Az 5008 Sumqayıt, 43-cü məhəllə, SDU, otaq 233.**
**Əlaqə telefonu: (018) 642-15-06 Əlavə: 1-16**

**Rektorluq**



# Etibarsız sayılır



**Kəngərli rayon** Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Musayeva Səbuhə Aslan qızına verilmiş A-498113 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Qasımlı Həqiqət Nizami qızına verilmiş A-066983 nömrəli bakalavr diplomu və dipoma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2021-ci ildə Əhmədova Türkan Mahir qızına verilmiş AA-153839 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 182 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əsgərli Pərvanə Fizuli qızına verilmiş B-671593 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 2 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Fərzəliyeva Leyla Xalid qızına verilmiş A-551416 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Məmmədova Röyalə Qurban qızına verilmiş A-047998 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2011-ci ildə Daşdəmirova Güllü Seyid qızına verilmiş AA-017098 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 8 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədova Günel Telman qızına verilmiş 088114 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 18 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Əliyeva (Xəlilzadə) Mehriban Əlimahir qızına verilmiş A-179313 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 60 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Şeydayeva Pelageya Vladimirovnaya verilmiş 444476 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Lahıc qəsəbə tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Süleymanova İradə Şiralı qızına verilmiş 718091 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texnologiya İnstitutu** tərəfindən 1993-cü ildə Qarayev Lətif Mədət oğluna verilmiş УВ-I-125654 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 6 nömrəli məktəb-liseyi 2023-cü ildə bitirmiş Hümbətov David Murad oğluna verilmiş E-570593 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 2003-cü ildə Ağayeva Selcan Akif qızına verilmiş AB-II-095532 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 145 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Rəhmanov Eyvaz Elmar oğluna verilmiş A-161769 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 278 nömrəli tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Mammadova Aılın Rafael qızına verilmiş C-869355 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 184 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Məmmədova Tünzalə Zahid qızına verilmiş A-035281 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** 5 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Cəbrayıllı Aynur Rəfail qızına verilmiş A-663112 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 177 nömrəli ümumtəhsil orta məktəbi 2010-cu ildə bitirmiş Bağırov Elçin Saleh oğluna verilmiş B-675740 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Plan İqtisad Texnikumu** tərəfindən (İndiki Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec) 1997-ci ildə Məmmədova (Nərimanova) Vəsilə Kamran qızına verilmiş AB-II-014718 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon Yəhərçi Qazaxlar** kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş İsayev Ziyəddin Məzahir oğluna verilmiş A-028852 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Uzuntəpə kənd 4 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Mehdiyeva Vüsalə Adil qızına verilmiş 191608 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 4 nömrəli tam orta məktəb-liseyi 2020-ci ildə bitirmiş Abdullazadə Bəhruz Pərviz oğluna verilmiş E-288911 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 27 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Musayeva Nərminə Rövşən qızına verilmiş A-305939 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Lənbəran kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Ədilova Yetər Fərman qızına verilmiş A-472932 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** M.Muradov adına 4 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Süleymanov Kamran Xalid oğluna verilmiş B-750097 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 253 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Mustafayeva Fidan Taryel qızına verilmiş A-519156 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2020-ci ildə Qasımova Sevda Zamir qızına verilmiş AT-006678 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 115 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Musayev Cavid Vaqif oğluna verilmiş E-205591 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xızı şəhər** R.İsmayılov adına tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş İsazadə Sinan Elvüqar oğluna verilmiş C-828157 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 7 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Quliyeva (Məcidova) Fatma Xanağa qızına verilmiş 111219 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası** tərəfindən 2010-cu ildə Hüseynova Günel Hüsaməddin qızına verilmiş B-181448 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Fətəlikənd kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Cəlilov Nadir Sabircan oğluna verilmiş A-077955 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Göyşaban kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Qasımova (Ağayeva) Cahan Ağoğlan qızına verilmiş A-315385 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Boladi kənd 1 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Hüseynova Sara Aydın qızına verilmiş A-034241 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Nərimanabad qəsəbə tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Kərimova (İskəndərova) Əzizə Xudabağış qızına verilmiş 140\60 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Xoylu kənd tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Fətəliyeva Səbinə Murad qızına verilmiş B-318077 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** N.Nərimanov rayonu “Erudit” tam orta məktəbi 2017-ci ildə bitirmiş Əliyev Murad Nicat oğluna verilmiş E-000317 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Verdiyeva Fatma Kərim qızına verilmiş A-135965 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**10 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2000-ci ildə Hacıyeva (Qurbanova) Cəmilə Şəmistan qızına verilmiş AB-048225 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Ocaqlı kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əmənova Nərmin Əlizadə qızına verilmiş A-033343 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1999-cu ildə Kazımova Təranə İsmayıl qızına verilmiş A-048378 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Qabaqçöl qəsəbə tam orta məktəbi 1991-ci ildə bitirmiş Camaldinova Ülkər Musa qızına verilmiş A-269466 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Ağayev Mirnadir Mirtağı oğluna verilmiş A-115806 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Bayramova Gülçin Mahir qızına verilmiş B-206205 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Çinarlı qəsəbə E.Həsənov adına tam orta məktəbi 1989-cu ildə bitirmiş Həsənov Səyyar İsa oğluna verilmiş 577405 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2015-ci ildə Abaslı Turqut Şamo oğluna verilmiş A-060156 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm qəsəbə 1 nömrəli tam orta məktəbi 1982-ci ildə bitirmiş Cəfərova Səkinə Zeynal qızına verilmiş A-735614 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 228 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Səlimova Xədicə Əhmədxan qızına verilmiş A-021595 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Mahmudov Mahmud İlham oğluna verilmiş A-557119 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 11 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Allahverdi Muhəmmədəli Nəcəf oğluna verilmiş E-491290 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 295 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Bədəlov İbrahim İlham oğluna verilmiş C-742581 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Aşağı Tüləkəran kənd tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Eldarova (Şirəliyeva) Kəmalə Əkrəm qızına verilmiş 896484 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Məmmədova Leyla İdris qızına verilmiş E-004277 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 71 nömrəli tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Məmmədli Əli Arif oğluna verilmiş C-895507 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** Heydər Əliyev adına tam orta məktəbi 2018-ci ildə bitirmiş Məmmədov Fərdi Faur oğluna verilmiş E-183646 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.